**Cəfərov M.** Ata, haqqını halal et // Respublika. - 2025. - 19 aprel. - **№ 77**. - S. 12.

**Vətənin müqəddəs torpaqları uğrunda canından keçən igid oğullardan birini də tanıyaq: Ramil Adəm oğlu Yusif-zadə. Şəhidimizin qısa ömür yolu belədir. 1998-ci ilin mayın 22-də Bakı şəhərində dünyaya göz açıb. 2015-ci ildə Bakının Mərdəkan qəsəbəsindəki Süleyman Rüstəmov adına 3 saylı gimnaziyanı bitirən Ramil həmin il Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında futbol müəllimliyi fakültəsinə daxil olub. 2019-cu ildə ali məktəbdə təhsilini başa vuran Ramil Yusif-zadə Qazax rayonuna həqiqi hərbi xidmətə yollanıb. Müharibə başlayanda o, cəbhənin Füzuli istiqamətinə göndərilib.**

Ramilin atası Adəm Yusif-zadə: "Ramili çox əzab-əziyyətlə böyütmüşdük. Nadinc, qorxu bilməz uşaq idi, peşəkar futbolçu, gözəl rəqqas idi. Böyüyəndən sonra mehriban, qayğıkeş, zəhmətkeş insan olub. İkinci Qarabağ müharibəsi başlayan zaman oktyabrın 11-də onları Füzuli rayonuna apardılar. Füzuli istiqamətində gedən döyüşlərdə Ramil şücaətlər göstərib. Son danışığımız oktyabrın 12-si olub. Mənə "Ata, narahat olma, Füzulidəyik, döyüşlər gedir. Elə yerdəyik ki, işıq yoxdur, telefonum sönəcək. Mənə son sözü "Ata, haqqını halal elə, anama bunları demə" oldu. Oktyabrın 15-i oğlumu yuxuda gördüm, məndən kömək istəyirdi. "Ata, məni gəl buradan çıxart" dedi. Mən artıq oğlumu itirdiyimi anlamışdım. Ramildən danışacaq sözlərim çoxdur, amma danışa bilmirəm. Noyabrın 2-si yoldaşım dözə bilmədi, hərbi hissəyə yollandı. O gedəndən sonra Ramilin itkin düşdüyünü öyrəndik. Reyhan bütün hospitalları gəzmiş, amma heç bir şey əldə etməyərək geri qayıtmışdı".

Anası Reyhan Yusif-zadə: "Ramilin Vətənə sevgisi uşaqlıqdan formalaşmışdı. Onun qəhrəmanlığından nə qədər danışsaq, yetməz. Oğlum hər şeyin yerini bilirdi. Heç vaxt Ramilə nə isə olacağını düşünmürdüm, qəlbim məni yanıltdı... Qazaxa getdim. Oğlumun sonuncu dəfə yatdığı yeri gördüm. Mən bir ana kimi onunla qürur duyuram, gələcəyi üçün həyat yoldaşım Adəmlə birgə çox arzularımız var idi. O arzuların hamısını Ramillə birgə torpağa basdırdıq. Ramil xidmətə gedəndə telefonunu mənə verib getmişdi. Ona "mənim ürəyim" adlı nömrədən çoxlu zəng gəlmişdi. Qızım dedi ki, "ana, aç görək kimin nömrəsidir". Açdım, gördüm ki, mənim nömrəmdi".

Tabor komandirinin müavini Asim Quliyev: Xidməti müddətində Ramildən hər zaman razı olmuşam. Nizamlı, hörmətli əsgər olub. Təlimlərdə hər zaman

fərqlənirdi. Onun fərqlənməyinin başlıca səbəbi ailəsinin verdiyi tərbiyədən asılı idi. Döyüş sahəsinə daxil olub, düşmən müdafiəsini yardıqdan sonra Ramil yaralandı. Buna baxmayaraq, döyüşməkdə davam edirdi. 2-ci dəfə Ramil ayağından ağır yaralandı. İlkin tibbi yardım göstərdik, amma Ramil yenə irəli getmək, döyüşə davam etmək istəyirdi. Bir müddət sonra düşmən tərəfindən atılan artilleriya mərmisi nəticəsində Ramil qəhrəmancasına şəhid oldu.

Bacısı Arzu Quliyeva: Oktyabrın 11-i yuxuma girdi. Mənə yaşıl və qırmızı rəngdə şar gördüyünü, yaşıl rəngi aldığını, qırmızıya isə pulunun çatmadığını dedi. Yuxudan oyananda böyüklərə danışdım, qırmızı rəngin bayrağa işarət olduğunu söylədilər. O, mənə dayaq idi, sirdaşım, dostum idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən Ramil Yusif-zadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.